# Azərbaycan–Türkiyə–Rusiya: Cənubi Qafqazda yeni geosiyasi konfiqurasiya

**II MƏQALƏ**

I məqalənin yekun tezisi Cənubi Qafqazda postmüharibə dövrünün ilk mərhələsinin başa çatması fonunda yeni konstruktiv geosiyasi konfiqurasiyanın formalaşmasına ehtiyacın yaranması kontekstində idi. Bu prosesdə Azərbaycanın aparıcı rol oynayacağı proqnostik tezisi irəli sürülmüşdü. Həmin iddianın ciddi əsasları vardır. Onların üzərində geniş dayanaq.

## Xarici siyasətdə “multiregionallıq”

Öncə onu vurğulayaq ki, Azərbaycanın xarici siyasəti tam olaraq Prezidentin kreativ siyasi zəkasına əsaslanır. Avrasiya məkanında Azərbaycan Prezidenti səviyyəsində geniş siyasi-diplomatik manevrlər fonunda yeni siyasi və geosiyasi təşəbbüslər irəli sürən liderə rast gəlinmir. Bunun nəticəsidir ki, xarici siyasətimizdə “multiregionallıq” adlanan maraqlı bir əlamətdən bəhs edirlər. Bu termin Azərbaycanın xarici siyasətdə regionlararası geosiyasi məkanda əməkdaşlıq, təhlükəsizlik və qarşılıqlı faydalı olan layihələrin həyata keçirilməsi istiqamətində davamlı fəaliyyətini ifadə edir. Onun kifayət qədər əlamətləri mövcuddur.

O cümlədən, ayrıca Rusiya ilə münasibətlərdə multiregionallığın xüsusi məzmunu formalaşmışdır. Burada həm Rusiya Federasiyasının ayrı-ayrı regionları ilə bütöv Rusiya dövlətinin tərkib hissələri kimi əlaqələri gücləndirmək xətti, həm də bu münasibətlərin ümumi ruhunu rəsmi Moskvanın maraqları ilə uzlaşdırmaq əzmi vardır. Hətta, onu deyərdim ki, Rusiya rəhbərliyi Azərbaycan rəhbərliyinin multiregionallıq konseptindən yararlanmalıdır. Çünki bir sıra rus diplomatlarının Azərbaycanın bölgələrində rus dili və mədəniyyətinin daha üstün olduğu haqqında təəssürat yaratmaq cəhdləri də məlumdur.

Məsələn, Azərbaycanda bir sıra etnik mənsublar üçün rus dilinin əsas ünsiyyət dili olması ilə bağlı uydurmaları eşidirik. Bunlar strateji müttəfiqliklə yanaşı, müasir dövlətçilik prinsiplərinə sayğı baxımından da qəbuledilməzdir. Azərbaycanda bütün vətəndaşların bir ünsiyyət vasitəsi vardır – Azərbaycan dili! O ayrı məsələdir ki, müxtəlif etnik qruplar öz aralarında ana dillərində ünsiyyətdə omaqda tam sərbəstdirlər və bu dövlətin titul milləti olan azərbaycanlılar bunu çox normal qarşılayırlar. Ancaq həmin etnik qrupların ana dili və dövlət dilindən başqa dili ünsiyyət vasitəsi kimi görməsi artıq Konstitusiyaya uyğun deyildir. Xüsusilə, o, xaricdən təhrik olunursa, dövlətin daxili işlərinə qarışmaqdır.

Güman etmirik ki, Kreml bəzi rus siyasilərinin bu cür çıxışlarına haqq qazandırır. Çünki rəsmi Bakı kifayət qədər səliqə, diqqət və məsuliyyətlə Rusiya Federasiyasının daxili işlərinə müdaxilə etmir. Heç zaman etməyəcək də.

Azərbaycanın multiregionallıq aspektindən Rusiya siyasətinin başqa maraqlı özəlliyi müxtəlif regionlarla əlaqələri Moskvanın maraqlarına zidd olmayan istiqamətdə inkişaf etdirməsidir. İki nümunə göstərə bilərik.

Birincisi, Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycan müxtəlif regionlardan olan dövlətlərlə münasibətlərini Rusiyanın maraqlarına zidd heç bir aspektdə qurmur. Əksinə, Moskva üçün də əhəmiyyətli olan kontekstdə həmin münasibətləri məzmunlaşdırır. Nümunə olaraq Fransanın müstəmləkə siyasətinin iç üzünü açmaqla bağlı Qoşulmama Hərəkatı üzvlərinin fəaliyyətinin təşkilini göstərmək olar. Rəsmi Moskva da bu təşəbbüsü tam dəstəkləyir və əməkdaşlıq edir. Bununla müxtəlif regionlar arasında münasibətlərin bir aspektində Rusiya–Azərbaycan qarşılıqlı anlaşması tam olaraq təmin edilir.

Digər nümunə Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində Azərbaycanın fəallığının Rusiya ilə münasibətlərə yalnız müsbət təsir etməsi ilə bağlıdır. Bu məqam, faktiki olaraq, Azərbaycanın multiregionluq konseptinə Rusiyanı orijinal konstruktiv məzmunda daxil etməsinin ifadəsidir. Konkret olaraq, Azərbaycan və başqa türk dövlətləri Çin, Aİ və ABŞ-dan fərqli olaraq, Mərkəzi Asiyada və Qafqazda Rusiyaya rəqib kimi meydan oxumur, onun haradansa sıxışdırılması kimi xəyallara qapılmır. Əksinə. Rusiyanın TDT əlaqələri üçün lazım olan bütün imkanlar yaradılır. Bu, Azərbaycan üçün iki miqyasda önəm daşıyır.

Birincisi, ikitərəfli münasibətlərdə regionlararası maraqların gözlənilməsidir. Misal olaraq Azərbaycan Prezidentinin Rusiyaya olan sön səfərində “yeni möhtəşəm layihə”nin həyata keçiriləcəyinin anonsunu verməsi çox əhəmiyyətlidir. İlham Əliyev “Şimal-Cənub” dəhlizi çərçivəsində Afrikaya qədər uzanan geosiyasi məkanda Rusiya ilə birgə möhtəşəm layihəni reallaşdırmaq niyyətlərini ifadə etmişdir. Bu, o deməkdir ki, multiregionluluq məzmunca daha da genişlənir. O, bir neçə regionu konkret proqramlar üzrə əməkdaşlıq və təhlükəsizlik aspektlərində əhatə edir. Diqqət edin, bura Uzaq Şərq, Cənubi Asiya, Rusiya, Cənubi Qafqaz, Körfəz dövlətləri, Yaxın Şərq, Afrika və Avropa daxildir. Ölkələrin sayı da çoxdur – Çin, Əfqanıstan, Pakistan, Hindistan, Rusiya, Türkiyə, İran, Azərbaycan, Gürcüstan, İraq, Liviya, Birləşmiş Ərəb Əmirlikləri, Qətər və digərləri.

Regionlar arasında daxili ziddiyyəti olmayan məzmunda real əməkdaşlıq yaratmaq və təhlükəsizliyi təmin etmək böyük bir işdir. Onu ancaq güclü və özünə inanan dövlət təşkil edə bilər. Azərbaycan Rusiya ilə birgə məhz bu istiqamətdə fəallığını artırmaqdadır. Məsələnin başqa tərəfi, təbii ki, Türkiyə faktoruna bağlıdır. Türkiyə Azərbaycanın təşəbbüs göstərdiyi hər bir layihəyə qeyd-şərtsiz dəstək verir. O cümlədən, Rusiya istiqamətində iki qardaş güclü dövlətlər tam koordinasiyalı və perspektivli siyasət yeridirlər. Deməli, multiregonluluq xəttində Azərbaycan-Türkiyə birliyi başlıca faktorlardan biri rolunu oynayır.



Bu qənaəti TDT-nin hər bir üzvünə aid etmək olar. Qazaxstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan rəhbərlərinin Bakıya dalbadal səfərləri məhz regionlararası münasibətlərin sistemləşdirilməsi, nizama salınması və reallaşdırılması kontekstində dolayısı ilə Rusiyanın da maraqlarının nəzərə alınmasını diqqətə almaq deməkdir. Bununla Rusiya-Azərbaycan münasibətləri uğurla Rusiya-TDT münasibətlərinə transformasiya olunur. Və faktiki olaraq Qərb tərəfindən aktiv surətdə sıxışdırılan və təcrid edilən Rusiya üçün yeni əməkdaşlıq “pəncərəsi” açılır. TDT bu baxımdan MDB-yə və Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatına zidd deyildir. Bu regional təşkilatlar arasında konstruktiv münasibətlərin inkişafı üçün geniş şərait mövcuddur.

Bu qənaət bizi avtomatik olaraq yeni bir anlayış – “multitəşkilatçılıq” terminini daxil etməyə istiqamətləndirir. Həmin anlayışın üzərində bir qədər geniş dayanmaq lazımdır.

## “Multitəşkilatçılıq” və II mərhələnin əsas amili

Bu məfhuma Azərbaycanın xarici siyasətinin yeni tarixi mərhələsində özəllikləri kontekstində iki anlam veririk.

Birincisi, Azərbaycanın xarici siyasətdə müxtəlif ölkələr və regionlar arasında əlaqələri vahid mövqedən təşkil etməsi özəlliyidir. Bu münasibətləri Azərbaycan fəaliyyətini sistemli və qarşılıqlı əlaqədə qurur. Nəticəsi isə müxtəlif ölkələr və regionların konstruktiv əməkdaşlıq müstəvisində inteqrasiyası və ortaq təhlükəsizlik sisteminin qurulmasıdır. Bu miqyasda Azərbaycanın xarici siyasətinin multitəşkilatçılığı həm ayrı-ayrı ölkələr arasında konstruktiv münasibətlər mühiti yaratmaqda, həm bu münasibətləri TDT fonunda regionlararası mühitə transformasiya etməsində əksini tapır. Həmin kontekstdə Rusiya ilə münasibətlər xüsusi yer tutur.

İkinci anlam məntiqi və siyasi məqsəd baxımından birinci anlamın davamıdır. Burada Azərbaycanın bir neçə regional təşkilatın qarşılıqlı münasibətlərini regionlararası əlaqələrin perspektivi çərçivəsində inkişaf etdirməyə yönəlmiş konkret addımları əsas yer tutur. Multitəşkilatçılıq həmin baxımdan çox sayda regional təşkilatların geosiyasi aspektdə ortaq fəaliyyətini inteqrasiyaya xidmət etməsi məqsədini daşıyır. Rusiyanın təşəbbüskarı olduğu MDB və Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatı kimi qurumlarla münasibətlər o kontekstdə qurulur.

Bu cür yanaşmanın qlobal geosiyasət prizmasında əhəmiyyəti vardır. Hazırda qlobal geosiyasətə regionların münasibətləri prizmasında baxış üstünlük təşkil edir. Yeni dünya nizamının formalaşması üçün bu yanaşmanı aparıcı hesab edirlər. Bu səbəbdən də dünyada yeni regional modellər yaradılır və onların münasibətləri ön plana çəkilir. Bu anlamda dünya nizamı regionlararası münasibətlərin tənzimlənməsi, ortaq əməkdaşlıq və təhlükəsizlik mühitinin formalaşması ilə sıx bağlı görünür. Belə çıxır ki, ayrı-ayrı regionlarda və regionlararası məkanda uğurlu siyasət yeridən dövlət yekunda yeni dünya nizamının formalaşmasına xidmət edir. Azərbaycan bu baxımdan regional təşkilatlar və regionlar arasında əlaqələrin uğurlu konstruktiv formatlarını təklif edirsə, qlobal nizamın yaradılmasında fəal iştirakçı olur.

Burada geosiyasi baxımdan çox əhəmiyyətli bir özəlliyi vurğulamaq lazımdır. Məsələ ondan ibarətdir ki, hər bir regional əlaqədə böyük dövlətlərin yeri və rolu düzgün müəyyən edilməlidir. Cənubi Qafqaz üçün bu, Rusiya, Türkiyə və İranın regional miqyasda geosiyasi funksiyalarını ədalətli və konstruktiv müəyyən etmək anlamına gəlir. Azərbaycan bu kontekstdə regionda yeganə dövlətdir ki, hər üç istiqamətdə uğurlu mövqe tutmuşdur. Türkiyə ilə strateji müttəfiqliyi Rusiya ilə strateji müttəfiqlik tamamlayır və İranla münasibətlərdə konstruktiv mühitin saxlanması üçün lazım olan addımlar atılır. Burada bizi Rusiya istiqaməti maraqlandırdığından onun üzərində dayanmaqda davam edək.

Beləliklə, Azərbaycan Rusiya ilə əlaqələri multivektorluq, multilaterallıq və multiregionallıq aspektlərində ona görə uğurulu qura bilmişdir və faktiki olaraq, Cənubi Qafqazın yeni geosiyasi konfiqurasiyasında Moskvanın iştirakını təmin etmişdir. Bu, Rusiyanın böyük və güclü dövlət kimi regionda yeri və rolunu adekvat müəyyənləşdirmişdir. Əgər Rusiya özünün böyük, regionda ənənəvi statusu olan və güclü dövlət kimi Azərbaycan tərəfindən qəbul edildiyinə əmin olmasa idi, burada heç bir regional konfiqurasiyada iştirak etməzdi. Əksinə, Qərbin acığına daha pozucu mövqe tutardı.

Deməli, Azərbaycan Rusiya istiqamətindəki konstruktiv siyasəti sayəsində bir neçə məqsədi, eyni zamanda, nəzərə almağı bacarmışdır. Birincisi, Azərbaycanın müstəqil dövlət kimi öz maraqlarının təmin olunmasına nail olmuşdur. İkincisi, Azərbaycanın Rusiya ilə Türkiyənin bir-birini "geosiyasi tanımasını" təşkil edə bilmişdir. Üçüncüsü, Rusiya – TDT münasibətlərinin qarşılıqlı faydalı bərabərhüquqlu müstəviyə transfer edilməsini reallaşdırmışdır. Dördüncüsü, bir siyasi məntiqlə Gürcüstan, Ermənistan və İranın Azərbaycana qarşı konstruktiv mövqedə qalmasını təmin etmişdir. Beşincisi, Rusiyanın regiona geosiyasi aspektdə Azərbaycanın yaratdığı yeni konstruktivlik ruhunda yanaşmasına nail olmuşdur.

Lakin Azərbaycan–Türkiyə–Rusiya geosiyasi konfiqurasiyasının siyasi əhəmiyyəti bunlarla məhdudlaşmır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***